# Yenidən qurulan 110/35/10 kilovoltluq “Ağcabədi” Yarımstansiyası istifadəyə verilib







Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq “Ağcabədi” Yarımstansiyasının açılışını edib.

AZƏRTAC xəbər verir ki, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

*Ardı 8-ci səh.*

# Yenidən qurulan 110/35/10 kilovoltluq "Ağcabədi" Yarımstansiyası istifadəyə verilib

*Əvvəli 7-ci səh.*





Bildirildi ki, 40 il əvvəl tikilən və istismar müddəti başa çatan, eləcə də artan tələbatı ödəyə bilməyən 110/35/10 kilovoltluq "Ağcabədi" Yarımstansiyası genişləndirilərək rəqəmsal qaydada tam yenidən qurulub. Yarımstansiyanın gücü 23 meqavolt-amper artırılaraq 126 meqavolt-amperə çatdırılıb. Burada 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək yenidən qurulub.

İşğaldan azad edilən ərazilərə qonşuluqda yerləşən sistem əhəmiyyətli "Ağcabədi" Yarımstansiyasında yeni İdarəetmə mərkəzi tikilib. Müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə, avtomatika sistemləri ilə təchiz olunmuş rəqəmsal İdarəetmə mərkəzində yerli mikro-SCADA dispetçer idarəetmə sistemi yaradılıb. 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular İdarəetmə mərkəzinin daxilində yerləşdirilib. İdarəetmə mərkəzi ilə 110 kilovoltluq açıq paylayıcı qurğu arasında xüsusi hermetik kabel kanalları tikilib.

Dövlət başçısı yarımstansiyanı işə saldı.

Qeyd olundu ki, yenidən qurulan yarımstansiya Ağcabədi şəhərində və rayon ərazisində yerləşən yaşayış məntəqələrini, meliorasiya, sənaye, sosial infrastruktur, ictimai-iaşə və digər obyektləri elektrik enerjisi ilə təchiz edəcək.

Azərbaycan.-2022.-15 fevral.-S.7-8.